# Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) hər dəfə ayaqyoluna girdikdə belə deyərdi: “Allahummə inni əuzu bikə minəl-xubusi val-xəbəis”

Ənəsdən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: "Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) hər dəfə ayaqyoluna girdikdə belə deyərdi: “Allahummə inni əuzu bikə minəl-xubusi val-xəbəis”.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) sidiyin və ya nəcisin ifrazı üçün ayaqyoluna daxil olmaq istədikdə, Allaha sığınar, kişi və qadın şeytanların şərrindən qorunmaq üçün Ona pənah aparardı. Hədisdə keçən "əl-xubsi val-xəbəis"-şərr və nəcasətlər kimi təfsir edilir.

https://www.sunnah.global/hadeeth/az/show/3150